# "Şəhidlər unudulmur"



**Astara rayon Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının qan yaddaşı- 20 Yanvar faciəsinin 36-cı illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirin təşkilatçıları Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi, eləcə Astara rayon Heydər Əliyev Mərkəzi olub.**

Əvvəlcə müstəqil Azərbaycanın yaradıcısı, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan xalqının müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladların xatirəsi 1 dəqiqəlik sükutla anıldı. Dövlət Himninin sədaları altında başlanan tədbirdə Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Astara rayonu üzrə gənclər və idman sektorunun müdiri R. Şirinov, Astara rayon Heydər Əliyev Mərkəzinin direktoru K. Səmədova, Astara rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar təşkilatının sədri O. Əliyev, Astara rayon tarix-diyarşünaslıq muzeyinin direktoru Ş. Əliyev, Astara rayon ümumtəhsil məktəblərinin müəllim və şagirdləri çıxış etdilər.

Natiqlər bildirdilər ki, 1990-cı ilin 20 yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Əksinə olaraq xalq daha da mətinləşdi və düşmənin gözünə dik baxdı. Həmin müdhiş gecədə həlak olan Vətənin oğul və qızları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Məhz buna görə də 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin rəmzinə çevrildi.

Tədbirdə "Qəhrəmanlıq tariximiz" mövzusunda video-çarx nümayiş olundu və rəssamlıq dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgiyə baxışla sona çatdı.